

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR

# LERİK

№ 01-02 (6064-6065) ✹ 31 yanvar 2023-cü il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiyməti 40 qəpik


## PREZİDENT ELAN ETDİ

**Bir müddətdir ki, Azərbaycanda yeni idarəetmə modelinə keçiləcəyi və rayon icra hakimiyyətlərinin ləğv ediləcəyi barədə səslənən ehtimallar və proqnozları Prezident İlham Əliyev təsdiqləyib. Bu barədə Prezident İlham Əliyev yerli televiziyalara müsahibəsində deyib.**



Prezident bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda tətbiq edilən yanaşma onra bütün ölkə üzrə də tətbiq olunacaq, o cümlədən idarəetmə mexanizmi:

"İndi bizi yeni idarəetmə modeli üzərində işləyirik.

Əlbəttə, kadr potensialı çox önəmlidir. Eyni zamanda, azad edilmiş torpaqlarda daha çevik, daha operativ, bürokratiyaya, xoşagəlməz hallara qurşanmış yeni strukturlar yaradılıb. Yeni, bu təcrübəni biz sonra tədricən ölkəmizin digər hissələrinə keçirəcəyik". İşğaldan azad edilmiş torpaqlarda Prezidentin xüsusi nümayəndələri fəaliyyət göstərir. Belə ki, Prezidentin Qarabağ ( Şuşa istisna olmaqla) və Şərqi Zəngəzura aid rayonlarda xüsusi nümayəndələri var. Bu praktika daha sonra Naxçıvan Muxtar Respublikasına tətbiq edildi və ilk dəfə olaraq Naxçıvana Prezidentin xüsusi nümayəndəsi təyin edildi. Beləliklə, Azərbycan idarəetmə modelindən tədrici dəyişiklik gedəcəyi və rayon icra hakimiyyəti institutunun iqtisadi rayonları üzrə Prezidentin xüsusi nümayəndəlik institutuna transfer olunacağı gözlənilir. Azərbaycanda 14 iqtisadi rayonun oduğunu nəzərə alsaq, onda onlarla rayonun idarəetməsinin 14 iqtisadi rayonda birləşdirilməsi və beləliklə, idarəetmə strukturunun çevikləşməsi gündəmdədir. Bu struktur inzibati aparatın ixtisarı ilə bürokratiyanın aradan qaldırılmasına, eyni zamanda büdcə yükünün azaldılmasına ciddi töhfə verə bilər.

## 20 YANVAR FACİƏSİ QURBANLARININ XATİRƏSİ ANILDI

**Lerik Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş 20 Yanvar faciəsinin otuzüçüncü ildönümünün keçirilməsinə dair Lerik Rayon İcra Hakimiyyətinin tədbirlər planı"na uyğun olaraq rayon məktəblərində, ərazi icra nümayəndəliklərində, idarə, təşkilat və müəssisələrdə 20 Yanvar şəhidlərinin xatirəsini yad etmək məqsəd ilə silsilə tədbirlər keçirilmişdir.**





Tədbirlər planına uyğun olaraq 20 yanvar 2023-cü il tarixində Lerik Rayon İcra Hakimiyyəti başçısı Əkbər Abbasov, icra hakimiyyəti başçısı aparatının əməkdaşları, hüquq-mühafizə orqanlarının, ictimai-siyasi təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri 20 Yanvar faciəsinin 33-cü ildönümü münasibəti ilə "Şəhidlər" abidə kompleksini ziyarət edərək abidənin önündə qərənfillər qoyaraq şəhidlərin xatirəsini hörmətlə yad ediblər.

20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

20 Yanvar faciəsi ilə əlaqədar saat 12.00-da rayonun ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

## HEYDƏR ƏLİYEV UCALIĞI

**Tarixi şərait sübut etmişdir ki, o xalq müstəqillik zirvəsinə yüksəldib ki, xalqın başında duran, xalqa yol göstərən şəxs öz siyasəti, ağıl və zəkasıyla digərlərindən üstün olsun, ən başlıcası isə xalqına sədaqətli olsun.**



Azərbaycan XX əsrdə tarixə adı qızıl hərflərlə yazılacaq tarixi şəxsiyyət bəxş etmişdir. Öz əməli ilə milyonların məhəbbətini qazanan, dövlətimizin qurucusu və xilaskarı, Azərbaycanı canı qədər sevən, Azərbaycan uğrunda məhrumiyyətlərə dözüb mübarizəsini bir an belə yarımçıq qoymayan, ən nəhayət, böyük və xoşbəxt Azərbaycan quran, Ümumilli Liderimiz Heydər Əliyev olmuşdur. Heydər Əliyev xalqını sevən, onun elini gözəl bilən, Azərbaycan diliniun saflaşması uğrunda mübarizə aparan, əsl azərbaycanlı, böyük filosofdur.

Dahi şəxsiyyətlərin əbədiyyətə qovuşması, onların vüqarını, əzəmətini, şöhrətini, nəhayət real qüvvələrini qabarıq formada görməyə, nəhəngliyini dərk etməyə daha çox imkan verir. Belə müdrik kəlam var ki, dağın vüqarı, əzəməti, böyüklüyü uzaqdan daha aydın görünür.

Danılmaz bir həqiqətdir ki, dahi şəxsiyyətlərin ideyalarından doğan hər bir həyat fəaliyyəti də dahiliyi təcəssüm etdirir, onun təbii inkası hesab edilir. Heydər Əliyev şəxsiyyətinin uzaqgörən və müdrik addımlarından biri və mən deyərdim ki, ən qiymətlisi də özündən sonra ölkəyə əziz sələfi, Heydər Əliyev siyasətinin bütün incəliklərini mənimsəmiş, doğma vətənini və xalqını bütün varlığı ilə sevən, dünya siyasi arenasında özünəməxsus xüsusi nüfuzu olan hörmətli İlham Əliyevi rəhbərliyə tövsiyə etməsi olmuşdur.

Dahi şəxsiyyətimizə son dərəcə sədaqətli olan Azərbaycan xalqı möhtərəm Heydər Əliyevin bu müqəddəs tövsiyəsinə layaqətlə cavab verərək böyük sevinc hissi ilə cənab İlham Əliyevin ölkə prezidenti seçilməsinə xeyir-dua vermişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin dahi şaxsiyyətə layiq səviyyədə atdığı addımlar onu göstərir ki, Heydər Əliyev şəxsiyyəti həm cismən, həm də ruhən xalqınn bütün varlığı ilə yaşamaqla Azərbaycan xalqını bütün varlığı ilə qoruyur və yeni qələbələrə aparır.

**Bilal Quliyev**

## ŞƏHİD MİRHÜSEYNOV NATİQ BALAMİRZƏ OĞLUNUN XATİRƏSİ YAD EDİLİB

**Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizdən birinin, Mirhüseynov Natiq Balamirzə oğlunun şəhadətə ucaldığı gündən iki il ötür.**




Şəhidin anım mərasimində Lerik Rayon İcra Hakimiyyəti başçısı Əkbər Abbasov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələri və kənd sakinlərinin iştirakı ilə Orand kənd qəbiristanlığında Natiq Mirhüseynovun və digər şəhidlərin məzarları ziyarət olunub, qəbirüstü abidələri önünə güldəstələri qoyulub.

Qeyd edək ki, şəhid Natiq Mirhüseynov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə ölümündən sonra orden və medallarla təltif olunub.

## LERİK ŞƏHƏRİNDƏ SƏYYAR GÖRÜŞ-QƏBUL KEÇİRİLİB

**Lerik rayon icra hakimiyyətinin başçısı Əkbər AbbasovLerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyin akt zalında Lerik şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin Lerik şəhər və Hıramo kənd sakinləri ilə səyyar görüş-qəbul keçirib.**



Səyyar görüş-qəbulda icra hakimiyyəti aparatının məsul əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar təşkilatların rəhbər işçiləri iştirak ediblər.

Öncə rayon icra hakimiyyəti başçısı Əkbər Abbasov görüş iştirakçılarını salamlayıb,cənab Prezidentin rəhbərliyi ilə əldə edilən tarixi qələbədən, respublikamızda, o cümlədən rayonumuzda və Lerik şəhəri inzibati ərazi dairəsində görülmüş işləri diqqtə çatdırıb, qarşıda duran vəzifələri qeyd edib.Səyyar görüş-qəbulların keçirilməsində əsas məqsədin yerlərdəki mövcud vəziyyəti vətəndaşların dilindən öyrənmək, həlli mümkün olan məsələləri yerində həll etmək, digər məsələlərlə bağlı aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları qarşısında məsələ qaldırılma olduğu bildirilib.

Qəbuldarayon icra hakimiyyəti başçısının Lerik şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi çıxış edərək Lerik şəhər inzibati ərazi dairəsi üzrəgörülmüş işlər və ərazidə mövcud olan ümumi problemlər barədə məlumat verib.

Rayon icra hakimiyyətinin başçısı vətəndaşların səsləndirdikləri problemləri ayrı-ayrılıqda dinləyib, onların həlli yollarının araşdırılması üçün görüləcək tədbirləri qeyd edərək aidiyyəti təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verib.

**Yanvar ayı ərzində Günəşli kəndində Cəngəmiran və Lüləkəran kəndlərində səyyar görüş qəbullar keçirilib.**

## UĞUR QAZANMIŞ TƏLƏBƏ İLƏ GÖRÜŞ



Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov Qlobal Cənubi Koreya təqaüd proqramının qalibi, Bakı Mühəndislik Universitetinin tələbəsi Nuriyeva Sevinc Hüseynəli qızı ilə görüşüb. Cənubi Koreyanın nüfuzlu ali məktəbinin tələbəsi adını qazanması münasibətilə onu təbrik edərək universitet də əla qiymətlərlə oxumasını, müstəqil Azərbaycanın adını, şərəfini həmişə uca tutmasını arzulayıb. Qazandığı uğurun digər lerikli gənclər üçün də motivasiya olduğunu və dövlətimiz tərəfindən həmişə istedadlı gənclərə dəstək göstərildiyini bildirib.

İcra baçısı təhsil sahəsində əldə etdiyi nailiyyətə görə tələbə qızı Təşəkkürnamə və hədiyyə ilə mükafatlandırıb.

Sevinc Nuriyeva icra baççısına təşəkkür edib. Etimadı layiqincə doğruldacağını, təhsilini başa vurandan sonra Vətənə qayıdıb ixtisası üzrə işləyəcəyini bildirb.

## NÖVBƏTİ QƏZETİMİZDƏ OXUYACAQSINIZ:



### ELİN NURUNA BƏLƏNMİŞ HƏKİM

Onun simasından nur yağırdı. Ürəyindəkiləri üz-gözündən oxunurdu. Kin-küdurətdən uzaq idi. Sanik o, insanlara yaxşılıq etmək üçün dünyaya gəlmişdi. Mənə elə gəlirdi ki, Elnur elin nurunu, sevgisini daşıyırdı. O, arzusuna, istəyinə çatmaq üçün enişli-yoxuşlu yolar keçmişdi.

Ziyalı ailəsindən pərvazlanmış Uzman həkim Elnur Babaxan oğlu Rufulayev insanların həyatını xilas etmək, onlara həyat bəxş etmək üçün yaşayırdı. Türkiyədə çalışdığı xəstəxananın qarşısda təsadüfü bir avtomobil qəzası nəticəsində həyatını erkən itirdi, lakin onun ruhu doğma el-obasına doğru uçdu...

# PREZİDENTİN SİYASƏTİ DƏSTƏKLƏNİR

**Azərbaycan Prezidenti İlham Əliyevin xarici ölkələrə səfərləri zamanı, eləcə də dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlığı, bizim forummlarda iştirakı və çıxışları, apardığı siyasət birmənalı olaraq dəstəklənir. Bununla əlaqədar redaksiyamıza vətəndaşlar zənglər etmişlər. Onların qısa qeydlərini sizin diqqətinizə çatdırırıq.**

**"Siyasi partiyalar haqqında" yeni Qanunun qəbulunun zərurəti**

Artıq qüvvədən düşmüş "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu 30 il bundan əvvəl - 1992-ci il 3 iyun tarixində qəbul edilmişdir. Ölkədə formalaşan yeni siyasi konfiqurasiya qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımların atılmasını zəruri etmişdir. Bu baxımdan Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni Qanun layihəsinin hazırlanması üçün Milli Məclisin sədrinə müraciət etmişlər.

"Siyasi partiyalar haqqında" yeni Qanunda diqqət çəkən məqamlardan biri də budur ki, hər kəs bərabər şəkildə siyasi partiya yaratmaq və ya mövcud siyasi partiyaya daxil olmaq hüququna malikdir. Bu hüquq yalnız qanunla müəyyən edilmiş hallarda məhdudlaşdırıla bilər. Qoyulan məhdudiyyətlər həmin hüququn mahiyyətini dəyişməməlidir, qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır.

**20 Yanvar faciəsi qəhrəmanlıq zirvəsidir**

20 Yanvar faciəsi müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. 1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.

Ulu Öndər Heydər Əliyev 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn Ulu Öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi;

Ulu Öndər Heydər Əliyevin 20 Yanvar həqiqətlərinin ifşa olunmasına xidmət edən fəaliyyəti. Ümummilli Liderin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. Ulu Öndərin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Ümummilli Lider dövrün mürəkkəbliyinə rəğmən, 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu və bunun nəticəsində həqiqətlər üzə çıxdı. Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə 1998-ci ildə "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib.

**Macarıstan dost ölkədir**

Prezident İlham Əliyevin Macarıstana rəsmi səfəri zamanı cari ilin 30 yanvar tarixində Budapeştdə mətbuata verdiyi bəyanatında deyib ki, həqiqət Macarıstan və Azərbaycan iki dost və tərəfdaş ölkə kimi bundan sonra da həm ikitərəfli əməkdaşlığı dərinləşdirəcək, həm də təmsil olunduğumuz beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi də bir-birinə əsirgəməyəcək.

Azərbaycan və Macarıstan arasında olan dostluq əlaqələri həm ölkələrimiz üçün, həm Avrasiya qitəsi üçün çox böyük önəm daşıyır. Strateji tərəfdaşlığa dair imzalanmış sənədlər onu göstərir ki, həqiqətən Macarıstan və Azərbaycan dost ölkələrdir.

Vaxtilə tarixə qovuşmuş sayılan NABUKKO layihəsini biz indi canlandırmışıq. Artıq Azərbaycan qazı Bolqarıstana, ondan sonra Rumıniyaya, ondan sonra Macarıstana və Macarıstandan sonra digər Avropa ölkələrinə çatdırılacaqdır. Macarıstan təkcə Azərbaycan qazının istehlakçısı deyil, eyni zamanda, Azərbaycan qazını digər Avropa ölkələrinə tranzit edən ölkə kimi fəaliyyət göstərəcək;

Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkə olsa da, Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilə bilər. Nəqliyyat sahəsində əməkdaşlığa dair çox böyük planlar mövcuddur. Dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, Azərbaycandan Macarıstana yüklərin ötürülməsinə başlamışıq.

# 23 YAŞLI QƏHRƏMAN NATİQ



**Tarixi dönəmlərdə hər bir dövlət, hər bir millət öz igidləri, qəhrəmanları ilə özünəməxsus iz buraxmış, qələbə qazanmışdır. Millətin başını göylərə ucaldan, onun şərəfini qoruyanlar millətin tarixini yaradanlardır. Elə vətən övladları var ki, qısa bir ömür yaşayır, lakin cəsurluq göstərir, vətənə məhəbbətdən doğan qəhrəmanlıq göstərir, əbədiyyətə qovuşsalar da gələcək**



**nəsillərə örnək olub, vətəni, milləti bütün insanlara sevməyi öyrədirlər.**

Natiq Balamirzə oğlu Mirhüseynovun vətənə sonsuz sevgisi onun vətənə xidmət etməsinə dövlətin bütövləşdirənlərin sırasında olmasına səbəb olmuşdu. Vətən adlı qibləgahı, şəhid adlı səcdəgahı var idi. Vətənin hər qarış torpğına düşən şəhid qanları vətənin müqəddəsliyindən xəbər verir. Natiq hələ bilmirdi ki, azadlıq uğrunda şəhadətə qucaq açanlardan olacaq, vətən müharibəsində Qələbə qazananların cərgəsində imzası olacaq.

Bəli, Natiq Mirhüseynov hələ cavan ikən qəhrəmanlığa doğru addımlayırdı. O, vətən uğrunda qanlı-qadalı döyüşlərə qatılarkən heç ağlına da gəlməzdi ki, ölümün gözünə dik baxacaq, düşmənin işğal etdiyi halal torpaqlarımızdan qovub çıxararkən onun cəsarəti, hünəri bir anın içərisində ən böyük qəhrəmanlığa çevriləcək, hamıya parlaq bir örnək olacaq, üstündə boy atıb yaşadığı torpağa, ailəyə, el-obaya şərəf gətirəcək, adı gələndə hamı ona ehtiramla baş əyəcək, qürur və iftixar hissi keçirəcək.

Vətənin bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi üçün mübarizə aparmış öyünüləsi, fəxr ediləsi igid olacaq, onun döyüş yolu bir əfsanə, bir dastan, bir tarixə dönəcək. Xalqın ən sevimli övldı Natiq Mirhüseynov əsl vətən oğlu kimi son borcunu şərəflə yerinə yetirdi, vətənin gülünə, çiçəyinə, dağına, daşına, torpağında yağan zəhərli gülləri öz bədənində dəfn etdi. O, şəhid oldu... gözlərini qırpmadan, ölümdən qorxmadan! Dizləri titrəmədi, əlləri əsmədi, gözlərini qırpmadı. O, bilirdi ki, arxada vətən var - Azərbaycan yaşayır...



Şərəfli ömür yolu keçən Natiq Mirhüseynov 23 il yaşadı. Qısa olsa da o həmişə xatırlanan oldu. O, 1997-ci ilin avqustunda Lerik rayonunun Orand kəndində təvəllüd tapmışdı. Orta təhsilini uğurla bitirib 2015-ci ildə həqiqi hərbi xidmətdə olmuşdu. 2017-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinə sənədlərini təqdim etmiş, Hərbi Akademiyada Hərbi Polis kursunu bitirmişdi. Beyləqan Qarnizon Hərbi Polisində, Lənkəran şəhərində yerləşən bölüyündə Post Patrul tağımının komandiri olmuşdu. O, həmişə vəzifə borcunu vicdanla yerinə yetirmişdi.

Natiq Mirhüseynov 27 sentyabr 2020-ci ildə komandirlik etdiyi 25 nəfərlik heyətlə Qarabağ müharibəsinə qatılmış, Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut istiqamətində gedən döyüşlərdə xüsusi hünər və şücaət göstərmiş, düşməni ağır itkilərə məruz qoymuş, canlı qüvvəsini məhv etmiş, texnikasını ələ keçirmişdi. Əks-həmlə əməliyyatları zamanı Natiq Mirhseynov ağır yaralanmış, tağımın MAHQ-su Vaqif İsmayılzadə, Toğrul Atakişiyev şəhid olmuşdular.

Yaralı Natiq Bakı Klinik Hospitalında müalicə olunmuş, həkimlərin səyinə baxmayaraq 30 yanvar Natiq 2021-ci ildə şəhadətə qovuşmuşdu. Şəhidin nəşi üçrəngli bayrağa bürünərək doğulduğu kənddə torpağa tapşırılmışdı. O, "Azərbaycan Bayrağı" ordeninə və bir neçə medala layiq görülmüşdür. Orandlı şəhidlərin xatirəsinə ucaldılmış abidədəki lövhədən şəhidlərlə birgə Natiq Mirhüseynov da boylanır. Onlar öz şərəfli şəhadəti ilə gənclərə mübarizə dərsi, vətəni sevməyi öyrədirdilər.

Balamirzə Mirhüseynov oğlunun şəhid olmasını evə gələn kədər kimi qəbul edir. Deyir ki, indi oğlum Natiq arzularda, xəyallarda yaşayır. Yəqin ki, ölməz ruhu Qarabağın azad səmasında gəzib-dolaşır...

**İdris Şükürlü**




# TAXILÇILIĞA DİQQƏT ARTIB



**Azərbaycanda aqrar sahəni daha da inkişaf etdirmək üçün dövlət tərəfindən böyük dəstək tədbirləri həyata keçirilir. Kənd təsərrüfatının müxtəlif sahələrinin, xüsusilə taxılçılığın inkişaf etdirilməsi məqsədilə subsidiyalar verilir, texnika təminatı ilə bağlı dövlət tərəfindən güzəştlər tətbiq edilir. Prezident İlham Əliyev tərəfindən imzalanmış "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 2022-ci ilin 19 iyul tarixli Fərman ölkədə ərzaqlıq buğdanın istehsalının artmasına səbəb olmuşdur. Bütün dünya ölkələrində ərzaq təhlükəsizliyi ilə bağlı çağırışların mövcud olduğu bir vaxtda bu sahədə risklərin qarşısının alınmasına xidmət edən belə bir qərarın qəbul edilməsi böyük tarixi ilə iqtisadi əhəmiyyət daşıyır.**

Lerik rayonunda taxılçılığın inkişaf etdirilməsi barədə Lerik DAİM-in direktoru Mahmud Zahidov müxbirimizin suallarına cavab verərək demişdir:

- İndiki dövrdə dünyada hiss olunan ərzaqlıq taxıl böhranı bizdən bu sahəyə daha çox diqqət yetirməyi tələb edir. Rayonumuzda taxılçılığın inkişaf etdirilməsində əvvəlki illərə nisbətən xeyli irəliləyiş vardır. Taxılçılıq həm də heyvandarlığa, yemçiliyə müsbət təsir göstərir, əhalinin maddi rifah halı yaxşılaşır.

2022-ci ildə rayonumuzun təsərrüfatlarında 284 hektarda zəmi biçilmiş, hər hektardan 23,6 sentnər məhsul əldə edilmişdir. Livədirqə, Noda, Şingədulan, Mulanan, Siyov, Daster, Çayrud, Nücü, Züvüc, Cəngəmiran ərazilərində taxıl əkinində və buğda istehsalının artmasında artım vardır. 2023-cü ilin məhsulu üçün nəzərdə tutulduğundan 997 hektar çox taxıl əkilmişdir. Taxıl əkinində sertifikatlaşdırılmış toxumdan daha çox istifadə edilmişdir. Ümumiyyətlə, taxılçılıq məhsulları əkini sahələri xeyli genişləndirilib. Texnika təminatı problemi həll edilsə, daha çox məhsul istehsal etmək mümkündür.

**"Lerik"**

# ATALARIN YOLU, ÖVLADLARIN QOLU

**Canəli İzzət oğlu Həsənovdan söz açmaq istərkən böyük təbib və filosof, solmayan şöhrət, böyük fəzilət sahibi Əbu Əli ibn Sinanın bu sözlərini xatırlamalı oldum. O, belə demişdir: "Mən çox istərdim ki, biləm mən kiməm və bu dünyada nə axtarıram?". Bu sualı bütün zəka sahibləri həmişə özlərinə vermişlər və indi də verirlər. Bu sualın cavabı geniş dünyagörüşünə shib insanların daxili aləmində, mənəviyyatında, yaddaşında, yaxşı əməlində öz təcəssümünü tapır. Aramızda olmadığı bir zamanda onun haqqında yazmaq, sözsüz ki çox çətindir. Bu çətinlik onun cismani yoxluğu ilə əlaqədar olsa da, bu böyük insanın xeyirxah işləri, ağsaqqallığı, zəngin fikirləri, cəmiyyətdə hörmət və nüfuzu ilə seçilməsi, həmişə insanların rifah halının yaxşılaşması üçün çalışması, əsl ailə başçısı olması Canəli Həsənovun çox dəyərli və əhəmiyyətli ömür sürməsinə bariz nümunədir.**



Canəli Həsənovu oxucuya təqdim etmək üçün onun vaxtı ilə yaşadığı Gürdəsər kəndinə getdim. Bu kənd həmişə ziyalıları, alicənab ağsaqqalları, torpağa, heyvandarlığa bağlı zirək adamlarıyla fərqlənib. Onlar Aşıq Pənahı, Aşıq Şakiri, Habil Əliyevi, Baba Mahmudoğlunu, Teymur Mustafayevi övladlarının toyuna dəvət edərdilər. Məşhur din xadimlərinin də yolu bu kəndə düşərdi. Gürdəsərdilər həmişə şənşux zarafatlarıyla, baməzə adamlarıyla da diqqət çəkib.

Gürdəsərdə olarkən öncə Xanhəsən Hüseynovla həmsöhbət oldum. O, həyətdə ot biçirdi. Eşitdim ki, Canəli əminin yaxın qonşusudur və hər ikisinin yaşı bir-birindən çox da fərqli deyil. Xanhəsən kişi əlindəki dəryazı kənara qoyub mənə "xoşgəldin" dedi, evinə dəvət etdi. Vaxtın azlığından Canəli Həsənov barədə danışmağı rica etdim. O bir qədər duruxub dedi:

- Rəhmətlik elə bil ölməyib, yaşayır. Ondan nə qədər yaxşı söz açsam, yenə də azdır. Sözlərimiz və xasiyyətlərimiz tuturdu. O, mərd və səxavətli, qonaqsevən, düzdanışan, zəhmətə bağlı adam idi. Ailəsinin əziyyət çəkməməsi üçün müxtəlif vəzifələrdə çalışmalı olurdu. O, fitrətən istedadlı idi, tapşırılan hər işi yaxşı bacarırdı. Rəhmətlik Canəli Həsənov traktorçu-maşinist, kolxozda hesabdar, mağazaçı işləmiş, kənd sakinlərinin hörmətini qazanmışdı. O kəndimizdə üzümçülüyün inkişaf etməsində çox fəal idi.

Hər il ona Yasin oxutdurur, qəbrini ziyarət edirəm. Allah ona cənnət savabı nəsib etsin...

Xasay Məmmədov isə belə dedi:

- Rəhmətlik Canəli əmi atam Yüzbaşı ilə dost idi. Onlar kəndin seçilmiş köhnə kişilərindən idilər. O, ibrətamiz, müdrik söhbətləri ilə insanlarda xoş ovqat yaradırdı. İncə yumoru, baməzə söhbətləri vardı. Çox mərd idi, özünəməxsus xarakteri vardı, çətinliyə düşən neçəsinə təmənnasız kömək etmişdi. Kəndi Gürdəsəri, el-obanı sevirdi, torpağın vurğunuydu, həmişə tərəqqiyə çalışırdı...

Ramiz Kazımov Gürdəsərin dəyərli ağsaqqalı, yaddaşlarda silinməz iz buraxmış 86 yaşında haqq dünyasına qovuşmuş Canəli İzzətoğlunu belə xatırlayır:

- Yadımdadır, məktəbdə iclas var idi. Söz Canəli Həsənova verildi. O, çox aydın, dərin məzmunlu, qısa bir nitq söylədi. İşğala məğruz qalmış torpaqların mütləq azad ediləcəyini qətiyyətlə dedi. Sonda bildirdi ki, buna keç kəsin şübhəsüi olmasın.

Canəli kişi deyərmiş:

- Unutmayaq ki, bu vətən insanlara, üstündə özlərinin yaşaması və qoruyub gələcək nəslə çatdırılması üçün bəxş edilmiş Allah əmanətdir. Bu əvəzolunmaz əmanəti gələcək nəsil üçün qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur.

Canəli Həsənovu xatırlayanlar dedilər ki, Lerikliyə, dağlar oğluna məxsus bütün müsbət keyfiyyətlər onda vardı. Şərəf və ləyaqətini həmişə uca tutardı, heç kəsə əyilmirdi, mərdi-mərdanə hərəkət edirdi. Kimsə kimin haqqına girəndə onu naqis əməlindən çəkindirər, düz yola dəvət edərdi. Həmişə barışıq tərəfdarı idi, qan-qaraçılığı, dava-dalaşı xoşlamazdı.

Canəli kişi anası Leylanı çox istəyirdi, onun bir sözünü iki eləməzdi. O, qonaqpərvər, ailəcanlı bir qadın idi, məclislərdə özünəməxsus yeri vardı. Övladları yolunda hər cəfaya dözür, lazım gələrsə ömrünü fəda etməyə hazır olardı. Canəlidən 8 nəvəsi var idi: 7 oğul, 1 qız. Hamısı həyatda öz yerini tapıb, ata-ananın başını ucaldıb. Gürdəsərin sayılıb-seçilən, şəninə layiq sözlər deyilən Canəli Həsənovun 5-ci övladı İqrardan xüsusi olaraq söz deməyə dəyər. İqrar kamil bir vətəndaş olmaqla elə-obaya, ata yurduna bağlı adam idi. Binə qəsəbəsində yaşayıb fəaliyyət göstərsə də doğma Gürdəsəri unutmur. Kəndlə bağlı bütün tədbirlərdə fəal iştirak edir, xeyirxahlığı ilə fərqlənir, kəndin illərdən bəri yığılıb qalan problemlərini tədricən həll etmək məqsədiylə ümumi yığıncaq çağırılmış, "Gürdəsər" Xeyriyyə Cəmiyyəti yaradılmış, sədri İqrar Həsənov seçilmişdir. Artıq cəmiyyət kəndin problemlərini həll etməyə başlamışdır.

Yəqin ki, Canəli kişinin ruhu oğlu İqrarın əməllərindən rahatlıq tapır...

**İdris Şükürlü**

# GÜLƏLİNİN QÜRURU

**Güləli Çahüseyn oğlu Fərziyevlə bir neçə il olar ki, dostluq edirəm. Öncə onun cəbhədəki hünəri, Şərqdə öndər, Qərbdə lider kimi tanınan Heydər Əliyevlə cəbhə bölgəsində həmsöhbət olmasını eşitmişdim. İş elə gətirdi ki, Güləli Fərziyevlə Bakının Binə qəsəbəsində görüşdüm. O, adına layiq dəyərli bir oğul təsiri bağışlayırdı. Simaca gözəl, xaraktercə söhbətcil və zarafatcıl olan Güləli geniş dünyagörüşünə malikdir, vətənpərvər, yurdsevər, xeyirxah və mərddir.**

Gülәlinin cəbhə bölgəsində göstərdiyi cəsurluq, işğala məğruz qalmış Qarabağda göstərdiyi hünər barədə Bakıda nəşr olunan bir neçə qəzetdə məqalələr oxumuşdum. Bir qələm sahibi kimi mənim də ürəyimdən keçirdi ki, Gülәlinin döyüş yolundan bəhs edən bir yazı yazım, onu lerikli oxuculara daha yaxından tanıdım. Nəhayət, bu fikrim reallaşdı, Gülәlinin cəbhə gündəliyi, mənsub olduğu həyat yolu ilə tanış oldum, qarşımdakı kağız, qələm karıma gəldi. Buyurun, ali təhsilli müəllim, hərbiçi zabit, öndərimiz Heydər Əliyevlə cəbhə bölgəsində həmsöhbət olub onun xeyir-duası ilə zabit rütbəsi artırılan Güləli Fərziyevlə siz də tanış olun.

25 fevral 1965-ci il Gülәlinin doğum günüdür. Barzavu kənd səkkizillik məktəbini bitirdikdən sonra Lerik qəsəbə orta internat məktəbində təhsilini başa vurub. ADU-nun kimya-biologiya fakültəsinə imtahan verib, ancaq lazımi nəticə alınmayıb. Bir müddət Lerikdəki tikinti idarəsində inşaatçı işləyib. 1983-cü ilin may ayında ordu sıralarına çağrılıb, Krasnodarda əsgərlik edib. Nümunəvi xidməti, nizam-intizamı ilə fərqlənən Güləli tezliklə evə göndərdiyi məktubda yazıb ki, mənə kitablarımı göndərin, instituta daxil olmalıyam. Axı atama söz vermişəm...

Hərbi hissə komandiri Azərbaycandan Güləliyə göndərilən bağlamanın içərisində kitabdan başqa bir şey tapmayıb. Onun Orconikdze adına akademiyada oxuması üçün təqdimat yazıb. M.Qorbaçov hakimiyyətə gəlmişdi, Güləli Rusiyada təhsil ala bilmədi. Lakin ruhdan da düşmədi. Axı ata-anasına söz vermişdi...

Güləli, APİ-yə (indiki ADPU) daxil oldu. Dörd ildən sonra hərbi hazırlıq və bədən tərbiyəsi fakültəsini bitirməsinə dair ali təhsil diplomunu görən kimi atası qurban kəsdi, qonşulara, kasıblara payladı, əllərini göyə qaldırıb Allaha şükürlər etdi. Onu təyinatla Azərbaycan (indiki Günəşli) kənd orta məktəbinə göndərdilər. Burada üç il işlədi, şagirdlərə ilkin hərbi bilik və vərdişlər, fiziki möhkəmlik, vətəni



qorumağın müqəddəs iş olduğunu öyrətdi. Kənddə, pedaqoji kollektivdə yaxşı hörmət qazandı.

### VƏTƏN ÇAĞIRIR

1991-ci il gəldi. Güləli Suraxanı rayonundakı 146 saylı orta məktəbdə ixtisası üzrə işlədi, həm də direktor müavini oldu. Qarabağda bir neçə rayon işğal edilmişdi. Bu ona çox pis təsir edirdi. Necə ola bilər ki dünyada heç bir nüfuza, hərbi gücə, tarixi keçmişinə malik olmayan qorxaq ermənilər ən zəngin bölgəmizi işğal edib öz caynağına alır, dünya buna susur. Yox, düşmən hiyləgərliyi və xarici ölkələrdəki havadarları, lobbiləri ilə güclüdür. Onların torpaq, onda biz də yağıları əzib torpaqlarımızı azad edərik, inşallah!..

Bu minvalla günlər aylara qovuşur, illər ağır keçirdi. Azğınlaşmış düşmən Xocalıda qanlı soyqırım törətdi, Qarabağ sakinləri yurdundan didərgin düşdülər. Cəbhədən hər gün bəs xəbərlər gəlirdi. 20 Yanvarı törədənlər düşmənə kömək edirdilər. Biz isə yenicə müstəqilliyə qədəm qoymuşduq. Çox kəm-kəsir var idi. Düşmənin qabağında qala biləcək mobil, güclü ordumuz yox idi.

Nə etməli? Bu suala Heydər Əliyev hakimiyyətə gələndən sonra cavab tapıldı. O, Azərbaycanı güclü dövlətə çevirmək üçün məqsədinə var-gücüylə çalışdı və məqsədinə nail oldu.

### ÇAĞIRIŞA CAVAB

92-ci ilin oktyabr ayı idi. Güləli Fərziyev Nizami rayon hərbi komissarlığına getdi. Ərizə yazıb döyüşlərdə iştirak etmək, vətəni qorumaq istədiyini bildirdi. Onun qətiyyəti komisarlıqdakı zabiti sevindirdi. Güləliyə dedi: "Sənin hərbi təhsilin və leytenant rütbən var. "Bizim ixtisaslı hərbi rütbəlilərə ehtiyacımız var. Sənin barəndə hərbi hissə komandirinə təqdimat göndərəcəyəm".

Beləliklə də, tez evə qayıtdı, əşyalarını götürdü. Evdən çıxanda həyat yoldaşı Maral xanıma dedi:

- Məndən ötrü darıxma, uşaqlardan muğayat ol. Vətən bizi çağırır, getməliyəm. Yadındadır, deyərdin: "Hamı cəbhəyə gedir, sən isə Bakıda hərbi paltarda gəzirsən. Vətəni qorumasaq düşmən bizə gülər. Vətən anadır, ana vətəni qorumaq imandandır, kişilik borcudur".

Onda dedim: Mənə də növbə çatar. İndi görürsən, könüllü gedirəm...

Maral xanımı bu söhbətdən sonra kədərqarışıq bir ümid, qürur hissi bürüdü...

Çox keçmədi ki, məşhur Horadiz əməliyyatı başladı. Güləli Fərziyev bu əməliyyatda cəsurluq və qorxmazlıq nümayiş etdirdi. Onlar düşməni Yuxarı Seyidəhmədli kəndinə və Horadizə kimi qovub xeyli ərazini işğaldan azad etdilər.

### HEYDƏR ƏLİYEV ONA KAPİTAN RÜTBƏSİ VERDİ

1994-cü il aprelin 9-u idi. Hərbi hissə Şükürbəyli kəndində cərgəyə düzülmüşdü. Ali Baş Komandan Heydər Əliyev sıraya düzülmüş heyətin qarşısından keçirdi. Onun gözü divar qəzetinə, plakatlara sataşdı. Bunlar əsgərlərin hərbi-vətənpərvərlik ruhunu yüksəltmək üçün hazırlanmışdı. Ulu Öndər Müdafiə Naziri Məmmədrəfi Məmmədova sarı tərəf dönərək dedi:

- Bunlar yaxşıdır, əsgərləri ruhlandırır, onların vətənpərvərlik duyğularını oyadır. Hətta şeir də yazıblar.



Briqadanın siyasi işlər üzrə müavini Üzeyir Cəfərov məlumat verdi ki, bunları zabitimiz Güləli Fərziyev hazırlayıb, şeiri də o yazıb.

Heydər Əliyev dedi:

- O zabiti yanıma çağırın.

Güləli Fərziyev əsgəri qaydada özünü təqdim etdi. Heydər Əliyev soruşdu:



- Təhsiliniz nədir, bəs rütbən?

Güləli duruxdu və belə cavab verdi:

- Baş leytenant rütbəsinə təqdim olunmuşam.

Ali Baş Komandan dedi:

- Ulduzların sayını artırıram. Sən bu gündən kapitansan.

Bu zaman briqada komandiri Vahid Osmanov Güləli Fərziyev barədə müsbət fikirlərini söylədi. Heydər Əliyev Üzeyir Cəfərova dedi:

- Qoy şeirini oxusun.

Güləli utancaq dedi:

- Cənab Prezident, mən şair deyiləm, səhvim ola bilər.

Heydər Əliyev tərk etdi:

- Yaxşı, oxu.

Güləli yazdığı şeiri oxudu. Ali Baş Komandanın xoşuna gəldi. Əlini Gülәlinin çiyninə qoydu, sonra Güləli cərgəyə keçdi.

Güləli Fərziyev 1994-cü ilin iyulunda Ali Hərbi Dənizçilik məktəbində kurs rəisi oldu. Sonra isə bir hərbi hissədə bölük komandirinin müavini təyin edildi. O, səhhəti ilə əlaqədar ordudan tərxis olundu. Güləli Fərziyevin böyük oğlu zabit Cavid Fərzəliyev Qarabağ müharibəsinin qazisidir, medallarla təltif olunub. İkinci oğlu Xaliq sərhəd qoşunlarında xidmət edir, ali təhsillidir.

Güləli Fərziyev Vətən müharibəsindəki böyük qələbəmizə çox sevinir. Deyir ki, qəhrəman əsgər və zabitlərimiz bizim tamamlamadığımız işləri başa çatdırıblar. Onların hünəri əvəzolunmazdır. Dövlət mənə mənzil verib. İctimai tədbirlərdə fəal iştirak edirəm, dövlətin daxili və xarici siyasətini dəstəkləyirəm. XXI əsrdə Azərbaycan Ordusunun qalib gəlməsi, dünyada qalib ordu kimi tanınması, ordumuzun düşmən üzərində qələbəsi, ona hədsiz qürur, iftixar hissi yaşadır...

**İdris Şükürlü**
**Azərbaycanın Əməkdar jurnalisti**

# MONDİGAHIN SİRLİ ƏSHABƏ TÜRBƏSİ...

Lerik rayonunun dilbər guşələrindən biri Mondigah kəndidir. Mondigah (Mondiqo)-Oykonim talış dilindəki mon (yerli tələffüz forması miyon olub, talış dilində "orta, mərkəz, ara" deməkdir.), di (kənd) və gah ( və ya qo talış və Avesta dilində guşə, yer, məkan deməkdir.) sözlərindən ibarətdir "ortada yerləşən kənd, orta kənd" mənasındadır. Komonim talış dilində Mondiqo adlanır, bu da komonimin hibrid olmadığını göstərir. Təhrif olunmuş variantından çıxış edib bu komonimi hibrid saymaq etimologiya prinsilərinə ziddir. Lerik rayonunun Bilaband inzibati ərazi vahidində yerləşən bu kənd Talış dağlarının Peştəsər silsilsilənin yamacındadır. Bu yaşayış yeri üç hissədən ibarətdir: 1. Mondiqo - orta kənd yeri; 2. Jindi - aşağı kənd; 3. Pendi - yuxarı kənd. Bəzi yazarlar bu kəndin adını insan adı ilə bağlamaq istəmiş, amma bu antrotoponim deyil. Mondigah Lerik rayonunun mərkəzi olan Lerik şəhərindən 9 km uzaqlıqda yerləşir.Bu kənd həm qədim tarixinə ,həm ziyalılarına görə Piran nahiyəsində fərqlənib.Qədim tarixinə gəlincə Mondigahın "Ğələ" adlı yerdə yerüstü saxsı məmulatlar,bişmiş qırmızı kərpiclər 13-14-cü əsrlərə aiddir.Belə ki,şəxsən özüm(Q.Kərimov) bu yerüstü səpələnmiş məmulatları 20 il əvvəl- 2002-ci ildə AMEA-da Arxeologiya və Etnoqrafiya İnstitunda arxeoloq işləyən elmlər doktoru Tufan İshaq oğlu Axundova göstərdim və Tufan müəllim tarix üzrə fəlsəfə doktoru Əliyev İdris Nurzəli oğlu və digər həmkarları ilə saxsı məmulatlara baxış keçirib 13-14-cü əsrlərə aid olduğunu söylədilər.2011-ci ildə Mondigaha qaz xəttinin çəkilişində qaz borusunun yeri qazılarkən daş qutu qəbirlər dağıldı və son tunc, ilk dəmir dövrünə aid (e.ə.2-ci minilliyin sonu və 1-ci minilliyin əvvəli),yəni Talış-Muğan mədəniyyətinə aid nümunələr üzə çıxdı..."Tarix üzrə fəlsəfə doktoru,arxeoloq Samir Kərimov Lərik rayonunun arxeoloji abidələri" əsərində (Bakı-"Araz"-2006;səh.27-28) qeyd edir ki,AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji abidələrin külliyyatı şöbəsinin rəhbəri,Cənub-Şərqi Azərbaycanın arxeoloji abidələrinin tədqiqi ekspedisiyasının və Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyasının rəisi Abuzər Ələkbərov 2002-ci ilin iyununda Mondigah ərazisindəarxeoloji qazıntılar aparmış, daş qutu qəbirlərin e.ə.12-7-ci əsrlərə, yəni Talış-Muğan mədəniyyətinin 2-3-cü mərhələsinə aid olduğunu müəyyənləşdirmişdir. Sevindirici haldır ki,arxeoloji qazıntılarda həmyerlimiz tarix üzrə fəlsəfə doktoru, arxeoloq Samir Kərimov da iştirak etmişdi. 2015-ci ilin iyul ayında Monidigah kəndi ərazisində ("Zərindaşt" adlı yerdə-kursiv Q.Kərimov) arxeoloji qazıntı aparılmışdır.A.Ələkbərov qeyd edib ki, biz bir kompleks aşkar etmişik. Burada həm daş qutu-qəbirlər, həm də son tunc, ilk dəmir dövrünə aid 3000 illik tarixi olan dolmenlər, yəni yaşayış məskəni mövcuddur. Əvvəlki illərdəki qazıntılarda ya qəbirlər aşkarlanıb, ya da yaşayış yerlərinin əlamətlərinə rast gəlinib. Amma burada biz bunların üçünü bir yerdə aşkarlamışıq.Burada təkcə bir dolmenin içərisindən 200-dən çox maddi mədəniyyət nümunəsi, o cümlədən saxsı qablar, bəzək əşyaları, silahlar, məişət avadanlıqları və s. üzə çıxarılıb. Tapıntıların hamısı xüsusi qablara yerləşdirilib. Fransa tərəfdən ekspedisiyaya rəhbərlik edən professor Mişel Kazanova bildirib ki, Monidigahda tapılmış maddi-mədəniyyət nümunələri Fransaya aparılaraq laboratoriya şəraitində müayinə olunacaq.Aşkarlanan əşyalar ilin sonlarında Parisdə, Bakıda və Tiflisdə keçiriləcək beynəlxalq sərgidə nümayiş olunmuşdu".(525-ci qəzet;Lərikdə 3000 illik tarixə malik daş qutu qəbirlər aşkarlanıb. 28.07.2015 )

Mondigah kəndində təhsilin tarixi haqqında araşdırmalarıma görə 19-cu əsrin ortalarından başlamış,yəni Çar Rusiyası dövründə həm Çayrudda ,həm də Mondigahda mədrəsələr də mövcud olmuşdur.Belə ki,Mondigah kəndində müdərris Gülməmməd Xanbaba oğlu Məmmədov ,müdərris Səməd İsgəndər oğlu,müdərris Muxtar Məmmədqasım oğlu Əzimov fəaliyyət göstərdiyi mədrəsədə S.Şirazinin "Gülüstan", təcvid, sərf və nəhv, nücum, ilahiyyat dərsləri və sairə tədris edilirdi. (Qədir Kərimov, "Elm ocağının işığında", Bakı, 2005, səh.8) Fenomen yaddaş və bənzərsiz əxlaq sahibi olan Şahmirzə Əliyev 2004-cü ildə saatlarla bizimlə həmsöhbət olmuş,bizə əvəzsiz məlumatlar vermişdir.1962-1963-cü illərdə kəndimizdə indiki E.Səfərov adına Çayrud kənd tam orta məktəbində direktor işləyən Şahmirzə müəllim və qardaşı Mirzə müəllimdən(Çayrud kəndində bir vaxtlar fərdşil işləyib)aldığım tarixi-etnoqrafik məlumatların dəyəri ölçülməzdir.Belə ki, Mondigahın tanınmış simalarından əslən Lerik rayonunun Mondigah kəndindən olan Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevin(1974-1995). Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Şahmirzə oğlu Əliyevin (05.05.1961) və İngiltərənin dünyaca məşhur olan Oksford Universitetinin hüquq fakültəsini bitirən Hacı Asif Həşim oğlu Həziyevin və başqalarının adını iftixar hissi çəkmək olar...

Əshabə (astovə) türbəsi-Lənkəran çayının bir qolu olan Bılaymiru adlı çayın üzərindəki



körpüdən 200 m uzaqlıqda daşlıq bir yerdə yerli əhəmiyyətə malik bir türbə mövcuddur ki,yerli əhali tərəfindən ziyarət olunan bu türbəni iki adı bizə bəllidir. Birinci və ən məşhur adı "Əshabə"dir. Əshabə ərəb sözüdür, mənası sahib çıxanlar deməkdir. Bu kəlmə Şərq dünyasında Məhəmməd peyğəmbərin(s) zamanından(570-632) 9-cu əsrə qədər daha çox işlək olmuşdur.Həm Peyğəmbərimizin(ə) ,həm də onun övladları sayılan məsum imamları(ə) görən,onların həyat və yaşayış tərzinə uyğun öz yaşayış tərzlərini quran, buyurduqlarına əməl edən adil şəxslərə səhabə deyilirdi.18 il əvvəl tarix müəllimi və gözəl səmimi insan Əliyev Şahmirzə Bəhmən oğlunun öz və babalarından etdiyi nəqlə əsasən bu türbəyə ona görə "Əshabə"türbəsi deyilir ki, Peyğəmbərimizin (s) əziz kötüycəsi İmam Məhəmməd Baqirin (ə) zamanında (677-732)onun səhablərinin bir neçəsi Əməvi zülmünün müqabilində həm dini təbliğat, həm də zülmə qarşı təşkilatlanma aparmaq məqsədi ilə Mədinədən İraqi-Ərəbə, İraqi-Ərəbdən İraqi-Əcəmə və nəhayət, Ərdəbil mahalına gəlmişlər.Yerli məmurlar tərəfindən qətl olunan səhabələrdən biri ilahi hikmət üzündən xilas olmuş və Talış dağlarına pənah gətirmişdir. Bu vaxt Xilafəti üsyanlar bürümüş, xəzər tayfaları 100 mindən artıq bir ordu ilə Ərdəbilə hücum etmişdi.Bir müddət gizli olaraq dini maarifi təbliğat edən əshabə indiki uyuduğu yeri yerli əhalidən satın almış və vəsiyyətinə əsasən həmin yerdə dəfn olunmuşdur.Müəmmalı həyatı və ölümü olan bu müqəddəs səhabənin dəfn olunduğu yerin unikallığı və özəlliyi odur ki,orada ondan başqa heç kəs dəfn olunmayıb.Halbuki müqəddəs şəxsiyyətin yanında dəfn olunmağı vəsiyyət etmək bizim Piran nahiyəsinin etnoqrafik xüsusiyyətlərindən biridir.Qəbrinin üstündə hər cümə çıraq yandırırmışlar.Onun seyid olması və İmam Musayi Kazimin (ə) nəvələrinə bağlanmasının nə nəqli, nə də elmi əsası yoxdur..Orada dəfn olunan sufi də deyil! Çünki sufizmdə əshabə yox, mürid və mürşid sözləri işləkdir.. Bəs türbə niyə "Astovə" adlanır? Astovə talış və Avesta dilində ulduza deyirlər. Deyilənə görə o müqəddəs əshabənin üzü ulduz kimi parlayırmış.Bizim fikrimizə görə xas əshabələr Peyğəmbərimizin(ə) nəqlinə əsasən göydəki ulduzlara bənzəyirlər.Belə ki, ulduzlar gecə insanlara yol göstərdiyi kimi əshabələr də məktəb və mədrəsələrin olmadığı dövrdə maarifləndirici şəxsiyyət kimi cəhalətin zülməti səmasında ulduz kimi parlamış lar. Sovet dövründə dairəvi formada çiy kərpicdən üstü ağac məmulatı ilə örtülən bir türbə mövcud olmuşdur ki,kənd əhalisini dəstəyi ilə 1989- cu ildə türbə ¾ ölçüdə və 2 m hündürlüyündə yenidən inşa edilir. Hətta Nəzərov Əminağa İrac oğlu türbənin yaxınlığına su çəkdirərək bulaq düzəltmişdir.2002- ci ildə nümunəvi ziyalı Şahmirzə müəllimin oğlu Əli Əliyev türbəni və qəbri yenidən təmir etdirib müqəddəs əshabəyə başdaşı qoymuşdur. Müqəddəs qəbrə cahillər iki dəfə nüfuz etmişlər:

1.Çar Rusiyası dövründə.Mərhum Mirzə Əliyevin bizə 24 il əvvəl ,yəni 1998- ci ildə danışdığı əhvalatı eynilə qeyd edirik:Çar Rusiyası dövründə iki nəfər müqəddəs əshabənin kəramətinə inanmayıb qəbri açmışlar.İkisinə də belə gəldi... 3 gün sonra Əminağa Nəzərovun babası təqvalı Nəzər kişi(1850-1940) yuxuda görür ki, bir əbalı və nurani şəxs ona deyir: "Nadanlar qəbrimi açdı, bir kəsək iki kürəyimin arasında qalıb bizi incidir. Nəzər, o kəsəyi götür və qəbrimi ört". Mərhum Nəzər kişi yuxunu kənd əhlinə danışır və 7 nəfər onunla qəbri düzəltməyə gəlir.Nəzər görür ki,qəbir yarımçıq formada açıqdır.Hətta bir kəsək iki kürəyinin arasında qalmaqla bərabər tər damcıları alnında qalıb, saqqalının xınası belə getməyib. Nəzər kişi kəsəyi götürüb qəbri düzəldir.

2.2007- ci ildə may ayında qızıl axtaran cahillər qəbrə nüfuz etmişlər... Türbənin əvvəlki təmirində, 18 pilləli pilləkənin inşasında, Vüsal Aşur oğlu Əliyevin, Fuad Fərəməz oğlu Əliyevin,Sərgül Həmzə qızı İsayevanın və Ağaxan Abdullayevin övladlarının(Arzuman) əvəzsiz xidməti olmuşdur.Türbənin yaxınlığındakı bulağın üzərindəki tağ və türbəyə yaxın körpünün yanındakı bulaq Qurban Əminağa oğlu Nəzərovun təşəbbüsü ilə inşa olunub. Aşur müəllimin anası Nəsibə Mirzəyevanın söylədiyinə əsasən türbənin damını İsayev Həmzə Qulamhüseyn oğlu təmir etməyi əhd edib və qara toğlu qurban kəsib,əhdinin əvəzində Tanrıdan türbədəki əshabənin məqamına xatir oğul övladı istəyib.Nəticədə Həmzə kişinin 7 qızı 2 oğlu (Əli, Qabil) olmuşdur. Türbə yenidən 2022- ci ilin avqustunda restavrasiya olunmağa başlanmış və usta Zərbəliyev Eldar Əlican oğlu tərəfindən günbəzli formada inşa olunub. İçəridəki taxca 60 sm/40 sm,pəncərə 70 sm/90 sm, qapı 2m/1m, günbəzin diametri 2m, türbə fasad tərəfdən 4m 82 sm/ 3m 80 sm, hündürlüyü isə 2 m 77 smdir,içdən isə 3m/4m hündürlüyü 2m 20 smdir.Bu türbədən əlavə Mondigah kəndində Bobo İsa türbəsi mövcuddur..Tarixçi Aqşin Mistanlı "Cənub bölgəsinin abidələr ensiklopediyası"əsərində yazır:"Baba İsa türbəsi yerli əhəmiyyətli memarlıq abidəsidir və Lerik rayonunun Mondigah kəndi ərazisində yerləşir. Türbənin tikilmə tarixi XVII əsrə təsadüf edir. Abidənin invertar nömrəsi 4768,sistem kodu isə AJA004570-dir". (Aqşin Mistanlı "Cənub bölgəsinin abidələr ensiklopediyası"; Bakı, 2020, səh.289.)

**P.S.** ***Keçmişini bilməyən bir millət gələcəyini qura bilməz.Məqalədə Əshabə türbəsi haqqındakı faktlar ilk dəfədir ki,mətbuatda işıqlanır və müəlliflik hüququ qorunduğu üçün istinad vacibdir.***

**QƏDİR KƏRİMOV**
**tədqiqatçı-filoloq,**
**AJB-nin üzvü,**
**"Qızıl qələm"**
**mükafatçısı**



# TARİXİMİZİN 20 YANVAR ZİRVƏSİ

33 ildir ki,20 Yanvar haqqında yazılır, məqalələr və kitablar çap olunur, filmlər çəkilir!Tariximizin qanla yazılmış səhifələrindən biri olan 20 Yanvar faciəsi qəhrəmanlıq salnaməmizdir.Yenidən müstəqillik qazanmağımız uğrunda qərənfil yağışından xarıbülbül nəğməsinə qədər uzanan şərəfli bir tarixi qürurla anırıq.Ümumxalq hüzn günü olan elə günlər var ki, kədərlə və sevinclə xatırlanır,amma müstəsna günlər var,o günlər əvvəlki mahiyyətindən fərqli olaraq xalqın qürur mənbəyinə çevrilir.Belə günlərdən biri də 20 Yanvar günüdür.Artıq faciənin 33-cü ildönümünü yaşayırıq...1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi mürüvvətsiz Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qəddarlardan ibarət qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusiqəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıb. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilib.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 131 nəfər şəhid olub, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və polis nəfərləri olub.Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olunub. Əməliyyatların gedişi boyunca paytaxt Bakı və respublikanın digər şəhər və rayonlarından 841 nəfər qanunsuz həbs edilib, onlardan 112-si SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərilib. Hərbi qulluqçular tərəfindən 200 evə, 80 avtomobilə, o cümlədən təcili yardım maşınlarına atəş açılıb, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib.

Sovet qoşunlarının hərəkətlərində 1945-1946-cı illərdə keçirilmiş və tarixə Nürnberq prosesi kimi düşmüş beynəlxalq tribunalda pislənilən bütün əlamətlər müşahidə edilib.

1990-cı il yanvar qurbanları simvolik olaraq "20 Yanvar şəhidi" adlanır. Ümumilikdə, Azərbaycanın 150 nəfər "20 Yanvar şəhidi" vardır.

Faciədən dərhal sonra - 1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib. Elə həmin il noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyev Yanvar faciəsini Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirib. 1994-cü il martın 29-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib.Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi.Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirib. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edib. Xalqın tələbi ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırılıb və Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərar qəbul edilib. Bu epoxal hadisə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. Məhz bu faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib, dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb. Fransız filosof, "Egzistensializmin" banisi Jan Pol Sartrın "Azad olmaq - özün kimi olmaq deməkdir" ifadəsi tam bu anda yerinə düşür. Azadlıq uğrunda savaş kimi yaddaşlara hopmuş 20 Yanvarın ən böyük dərsi budur ki, hər hansı təhlükə qarşısında xalq öz birlik, azadlıq eşqi üçün canından keçməyə hazır oldu, igid Vətən övladları canları, qanları bahasına gələcək müstəqilliyin təməlini qoydular. Dövlətimizin başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hər il ölkəmizin azadlığı uğrunda həlak olanların əziz xatirəsini ehtiramla yad edirlər və prezident cənab İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoyur. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilir. Ümummilli lider siyasətini davam etdirən Prezident İlham Əliyev 20 Yanvar əlilləri və şəhid ailələrinə daim diqqət və qayğı göstərir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilib.Hər il yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir. Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini əziz tutur. Hər il faciənin ildönümü izdihamlı ziyarətlərlə müşayiət edilir, xalq istiqlal fədailərinin məzarlarına faciənin simvoluna çevrilmiş al qərənfillər düzür, onları qürurla anır, qatillərini lənətləyir, bu faciəni törədənlərə dərin nifrətini bildirir.Allah cəm şəhidlərimizi rəhmət eləsin.Ruhları şad və xatirələri daim əziz olsun!

**Qədir Kərimov**
**Tədqiqatçı-filoloq,**
**AJB-nin üzvü,**
**"Qızıl qələm" mükafatçısı**

# MASALLIDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 100 İLLİYİ QARŞISINDA

**DÖVLƏT MÜSTƏQİLLİYİMİZİN MEMARI**



Masallı Rayon Agsaqqalar Şurası və rayon Mərkəzi kitabxanasının təşəbbüsü ilə Heydər Əliyev strategiyasının təbligi ilaı bağlı birgə yaradıcılıq görüşü keçirilmişdir.

Tədbirdə rayonun tanınmış yazarları, kitabxana əməkdaşları, gənclər iştirak etmişlər.

Mərkəzi kitabxanada keçirilən tədbiri giriş sözü ilə kitabxananın direktoru Zamin Məmmədov açmışdır.

Tanınmış ziyalı, uzun müddət rayonda müxtəlif məsul vəzifələrdə çalışmış, 3-cü dərəcəli Vətənə xidmətə görə ordenli, 16 kitabın, yüzlərlə iri həcmli məqalələrin müəllifi yazıçı-publisist, rayon Ağsaqqallar Şurasının sədri Ələşrəf Niftiyev"Heydər Əliyev Azərbaycan Dövlət müstəqilliyinin memarı və qurucusudur" mövzusunda məruzə etmişdir.

Rayonun tanınmış ağsaqqal yazarlarından Nurməmməd Ağa, Meysaba Aslanova, Tahir Hüseynov, Yeni Azərbaycan Partiyası Masallı Rayon Təşkilatının nümayəndəsi Eldar Kazımov, tanınmış jurnalist, "Yeni Həyat" qəzetinin məsul katibi, 10 publisist kitabın müəllifi Həsənağa Əliyev, rayon Ağsaqallar Şurasının mətbuat katibi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü İbrahim Şükürov, Heydər Əliyev Mərkəzinin direktor əvəzi Gülcahan Vəkilzadə, Masallı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Əntiqə Tağıyeva çıxış etmiş, Ulu Öndər Heydər Əliyevi Azərbaycanın bugünkü inkişafının qarantı, xalqımızın tarixə bəxş etdiyi böyük siyasətçi kimi dəyərləndirmişlər.

Tədbiri rayon Agsaqqallar Şurasının sədri Ələşrəf Niftiyev yekunlaşdırmışdır.

**İbrahim ŞÜKÜROV,**
**Masallı Rayon Agsaqqallar şurasının mətbuat katibi.**
**Azərbaycan Jurnalistlər birliyinin üzvü.**



# LERİKİN AĞSAQQALI, ALİMLƏRİN ALİMİ



**Biologiya üzrə fəlsəfə doktoru, "Ali kateqoriyalı" müəllim, prezident təqaütçüsü, Ali media mükafatları laureatı, 17 kitab müəllifi Hacımusa Bədəlovun vəfatından 60 gün keçib.**

1931-ci il təvəllüdlü Hacımusa Əbdülhüseyn oğlu Bədəlov ötən il 92 yaşında dünyasını dəyişmişdir. Yaxında, uzaqda yaşayan dostları, qohumları, ictimaiyyət nümayəndələri, müəllim yoldaşları onun dəfnində iştirak etdilər. Öz ehtiramlarını bildirərək vidalaşdılar.

Musa Bədəlov Lerik rayonunun sayılıb-seçilən ağsaqqalı, 50 ildən çox pedaqoji sahədə çalışmış müəllim idi. M.Bədəlov Lerik rayon Partiya Komitəsində təlimatçı işləmiş, Lerik qəsəbə orta internat məktəbinin direktoru olmuşdur. O, daim elmi iş üzərində çalışmış, təfəkkürünü genişləndirmək üçün axtarışlar aparmışdır. 1956-cı ildə APİ-nin kimya-biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. O, arıçılıq üzrə Moskvda alimlik dərəcəsi almış, arıçılıq sorxozuna rəhbərlik etmiş, arıçılığa dair kitab yazmış, bir sıra məqalələr çap etdirmiş, səmərələşdirici təkliflər vermişdir. Xalq təbabətini yaxşı bildiyindən, bu mövzuda bir neçə kitab yazaraq çap etdirmişdir. Onun tövsiyəsi ilə çoxlu xəstə şəfa tapmışdır.

Hacı Musa Bədəlov həmişə alicənablığı, təşkilatçılıq bacarığı, fərqli düşüncə tərzi, ictimai fəallığı ilə nümunə olmuşdur. O, elmi biliyi, ədəb-ərkan, ziylılığı, səxavəti ilə də yaddaşlarda qalıb. Gəncləri həmişə milli-əxlaqi ruhda tərbiyə edir, vətənpərvərlik tərbiyəsinə xüsusi önəm verirdi.

Hacı Musa Bədəlov 2004-cü ildə müqəddəs həcc ziyarətində olmuşdur. O, təqralı bir mömin, kamil iman sahibi idi. O, media mənsublarının yaxın dostu idi, bir neçə nüfuzlu mükafata layiq görülmüşdü.

Zaman keçsə də Hacı Musa Bədəlov unudulmayacaq, xatirələrdə yaşayacaq.

**"Lerik"**

# 85 yaşlı aşıq Məmməd mədəniyyət kanalının qonağı olmuşdur

28 yanvar 2023-cü ildə Mədəniyyət TV-də "Saz və söz axşamı" verlişində 21 il əvvəl universitetdə bizə dərs deyən, daim onun varlığı ilə iftixar etdiyim və və əziz müəllimim professor Məhərrəm Qasımlının təqdimatında Cənub bölgəsinin aşıqlarından biri ilə 85 yaşlı Aşıq Məhəmməd Cəbiyevlə görüş keçirildi.10 ildən çox bu verlişi ustalıqla aparan professor Məhərrəm Qasımlı Aşıq Məhəmməd Cəbiyevin bu yaşda yaddaşına, səsinə, istedadına heyran olduğunu gizlətmədi və təəccübünü etiraf etməklə bərabər onu ustad aşıq adlandırdı.Aşıq Məhəmməd əsli ərdəbilli olan ustad Aşıq Qurbanəlinin (1864-1958) yaradıcılığından bəhrələnib. Tanınmış əməkdar jurnalist İdris Şükürlü Aşıq Qurbanəli haqqında oçerk yazmış və onun qeyd etdiyinə görə "Şah İsmayıl "məhəbbət dastanının 10 variantı var ki, birini də Aşıq Qurbanəli söyləyib. Aşıq Məhəmməd heç bir musiqi məktəbi bitirməyib və heç bir aşığa şagirdlik etməyib."Getmə dayan,mən də gəlim" aşıq mahnısını ifa edəndən sonra professor Məhərrəm Qasımlı Aşıq Məhəmmədi "Dağlar oğlu" adlandırdı.Sonra Dərbəndi havasında "Boz at,səni sər tövlədə saxlaram" mahnısını ifa etdi.Aşıq Məhəmməd "Valeh və Zərnigar"dastanından Aşıq Valehin şagirdi Səmədin başına gələn əhvalatı danışır.Sonda Aşıq Məhəmməd XIX əsr Borçalı aşıqlarından Qul Allahqulunun "Qaldı" ustadnaməsini söylədi ki,maraqlananlar pofessor Məhərrəm Qasımlının və Mahmud Allahmanlının 2018-ci ildə nəşr etdikləri "Aşıq şeirinin poetik biçimləri və çeşidləri əsərinə müraciət edə bilərlər.



Könül, qulluq eylə kamil ustada,
Ustad görməyənin işi xam qaldı.
Neçə danəndələr getdi dünyadan,
Yerində bir neçə ağlıkəm qaldı.

Nanəcib heç kimə ənam eyləməz,
Təkəbbür kimsəyə salam eyləməz,
İnsan bu dünyanı tamam eyləməz,
Çoxları cəhd etdi, natamam qaldı.

Ərəb at üstündə durdum deyənlər,
Asdım, kəsdim, yıxdım, vurdum deyənlər,
Dünyaya əmlakım, yurdum deyənlər,
Onlar da köçdülər, quru dam qaldı.

Bivəfaya dedim, dur məndən üzül,
Müxənnəsə baxma, gözlərim, süzül,
Nuh da ömr eylədi min doqquz yüz il,
Elə bil, bir gündüz, bir axşam qaldı.

Qul Allahquluyam, ay nəsib eylə,
Şəcərdən bac verib, ay nəsib eylə,
İsgəndər mülküdür, aynası belə,
Nə Cəmşid padişah, nə də Cam qaldı.

**Qədir Kərimov**
**Tədqiqatçı-filoloq,**
**AJB-nin üzvü,**
**"Qızıl qələm" mükafatçısı**


# ƏHALİNİN NƏZƏRİNƏ

**Lerik Rayon Mərkəzi Xəstəxanasında Publik hüquqi şəxsin USM KABİNETİ**

Sizin xidmətinizdədir

Müasir tipli USM aparatı ilə təcrübəli həkim Aqşin Hüseynov sizə aşağıda göstərilən tibbi

müayinələri dəqiqliklə həyata keçirir:

**Qaraciyər, öd kisəsi**
**Mədəaltı vəzi**
**Dalaq**
**Böyrəklər**
**Sidik kisəsi**
**Prostat vəzi**
**Uşaqlıq, yumurtalıqlar**
**Qalxanabənzər vəzi**
**Süd vəziləri**
**Limfa düyünləri**
**Hamiləliyin (dölün müayinəsi, cinsin təyini)**
**Neyrosonoqrafiya (1 yaşa qədər uşaqlarda beynin müayinəsi)**
**Timus vəzi**

LOGİQ C5 yeni USM aparatı konveks, düzxətli və vaginal göstəricilərlə təchiz olunmuşdur.

Bu göstəricilər vasitəsilə orqanların rəngli və energetik doppleroqrafiyasını həyata keçirmək mümkündür.

Qaraciyər xəstəlikləri, öd daşı, böyrək daşları, düyünlü və diffuz zobun təyini, süd vəzi adenomaları, kistoz törəmələri və şiş xəstəliklərinin



müayinəsi yüksək dəqiqliklə həyata keçirilir.

Ana bətnində dölün həyat göstəricilərini (ürək vurğular və hərəkətliliyini), müxtəlif qüsurları, təxmini doğum tarixini və s. təyin etmək üçün LOGİQ C5 aparatı qarşınızda böyük imkanlar açır.

Uşaqlığın strukturunda yerləşməsindən asılı olmayaraq fibroma və miomaların, yumurtalıqlarda kistaların və s. təyini təkcə abdominal deyil, eyni zamanda transvaginal yolla mümkündür.

Həkim Aqşin Hüseynova vaxtında müraciət edin, yeni nəsil USM LOGİQ C5 aparatı vasitəsilə yüksək ixtisaslı tibbi müayinə alın, sağlamlığınızı vaxtında bərpa edin, uzun və xoşbəxt ömür sürün.

**Əlaqə telefonu:**
**(050) 727-69-75.**


# LERİKİM MƏNİM!

*Vətən müharibəsində canını qurban edən Təbriz, Samir kimi qorxmaz oğullara həsr edirəm*

Qoynunda dünyaya mən göz açmışam,
Dağlardan ilham alıb qanadlanmışam.
Ana tək mən səni doğma sanmışam.
Qürurlu dağlarım, Lerikim mənim!

Sis dağlar başında tutmusan qərar,
Ey dağlar diyarım, azad-şən diyar.
Xəstələr qoynunda tez şəfa tapar,
Təbibim, loğmanım, Lerikim mənim!

O, uca dağların verib baş-başa,
Hər qayan, hər dağın gözəl tamaşa.
Şəfa bulaqların çox gəlir xoşa,
Dağları səfalı, Lerikim mənim!

Ad-san qazanmısan halal zəhmətlə,
Bəzənib dağ-düzün min cür hörmətlə.
Vurğunu olmuşam sevən ürəklə,
Mənim ağ şəhərim, Lerikim mənim!

Dağlar diyarının adı-sanı var,
Təbriz, Samir kimi qəhrəmanı var.
Qəhrəmanlar yurdu, azad-şən diyar,
Ərənlər yurdusan, Lerikim mənim!

Sərin bulaqların ayna tək təmiz,
Hər qarış torpağın bizlərə əziz.
Qoynunda çalışınq, yaşayırıq biz,
Öz dağlar diyarım, Lerikim mənim!

Yeni tarix tarix yazdı mərd oğulların,
Sancıldı Şuşada Zəfər bayrağın.
Sevindi, şadlandı doğma ocağın,
Öz dağlar diyarım, Lerikim mənim!

Qoynunda çox əsrin izləri yatır,
Min dərdə dərmanlı otların bitir,
Otların şəfadır, köməyə yetir,
Dağları loğmanlı, Lerikim mənim!

Səsi bal tək şirin sənətkarın var,
Necə ürəkaçan nəğməkarın var.
Səninlə duyuruq qürur, iftixar,
Nəğməli diyarım, Lerikim mənim!

**Muradəli Hüseynov**
**Bradi kəndi**





# ANA, BİZİM ÜRƏYİMİZ SƏNDƏDİR

Bilirəm ki, çox sevirsən Səmədi,
Gözünün ilk nuru şirin Mədədi.
Can, ciyərin küsəyən Öməri,
Ana, bizim ürəyimiz səndədir.

Hüseyindir gülər üzlü,
Həsənindir hüsnü gözəl.
Övladların ömrün bəzər,
Ana, bizim ürəyimiz səndədir.

Firəngizin gül qoxulu baldı bal,
Arzu qızın çiçəklərin tacıdır.
Yeddi övlad bir nemətdir ay ana,
Ana, bizim ürəyimiz səndədir.

**Arzu İsmayılova.**
**Qazax şəhər H. Qaratel adına ümumi orta məktəbin 5 b sinif şagirdi**




"Lerik" qəzetinin baş redaktoru:
İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı:
Lerik şəhəri, Həzi Aslanov küç. - 1.
Tel.: (070) 200-21-54

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 191

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935

Qəzet "Son Dakika" MMC mətbəəsində çap edilmişdir.